# Əhalinin məşğulluğunun təmin edilməsinə yönəldilən tədbirlər davamlı xarakter daşıyır

## Prezident İlham ƏLİYEV: "Bu qədər iş yerlərinin açılması, əlbəttə ki, insanların sosial müdafiəsinə hesablanıb"

2003-2015-ci illərdə Azərbaycanda milyon yarım yeni iş yeri yaradılıb ki, onun da 1 milyonu daimidir. Bu ilin ilk üç ayında 31 mini daimi olmaqla daha 37 min iş yerinin açılması ölkədə məşğulluq probleminin həlli istiqamətində həyata keçirilən tədbirlərin davamlılığını təsdiqləyir. Təsadüfi deyil ki, ilin əvvəlindən yeni iş yerlərinin yaradılması əsasən dövlət sektorunda baş verib.

İndi Azərbaycanda işsizliyin səviyyəsi 5 faizə enib. Bununla belə, dövlət əhalinin məşğulluq problemini prioritet məsələlərdən biri kimi daim diqqət mərkəzində saxlayır, hər bir vətəndaşın işlə təminatının öz həllini tapmasına çalışır. Odur ki, yeni müəssisələrin, nəticə etibarı ilə iş yerlərinin sayı aydan-aya artsa da, bu prosesin dayandırılmamasının vacibliyi qeyd olunur.

Azərbaycanda yoxsulluğun səviyyəsinin aşağı düşməsinin başlıca səbəblərindən biri də məhz yeni iş yerlərinin yaradılmasına yetirilən xüsusi diqqət və görülən əməli tədbirlərdir. Əhalinin məşğulluğunun təmin olunması üçün eyni zamanda həm dövlət, həm də özəl sektor vəsait yönəldir.

İş yerlərinin sayının artırılmasına ehtiyac ilk növbədə, ölkədə əhalinin sayının çoxalmasından irəli gəlir. Belə ki, Azərbaycanda əhali ildən-ilə artır. Əgər 2003-cü ildə ölkə əhalisinin sayı 8,4 milyon nəfər idisə, indi artıq 10 milyon nəfərə yaxınlaşır. Əlbəttə, belə fərəhli demoqrafik göstərici Azərbaycanın sosial-iqtisadi inkişafının əlamətidir. Əhalinin artması, eyni zamanda, qarşıya mühüm vəzifələr qoyur. Yeni uşaq bağçalarının və müalicə mərkəzlərinin, məktəblərin tikilməsinə və əlbəttə, yeni iş yerlərinin açılmasına zərurət yaranır.

Eyni zamanda, müəyyən səbəblərdən bağlanan müəssisələr, itirilən iş yerləri də olur ki, onların yerinə təzələrinin açılması məsələsi gündəmə gəlir. Buna görə də Prezident İlham Əliyev əhalinin məşğulluq məsələsini daim nəzarətdə saxlayaraq bu istiqamətdə hərtərəfli düşünülmüş siyasət aparılmasını, ölçülüb-biçilmiş tədbirlərin görülməsini vacib hesab edir, aidiyyəti qurumlara konkret tövsiyələr və tapşırıqlar verir.

Dövlət başçısı əhalinin məşğulluq məsələsində problemlərin olmaması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə dövlət şirkətlərinə birgə işləməyi tapşırmışdır. Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda Prezident məşğulluq idarələrinə müraciət edən insanların işlə təmin olunması üçün dövlət şirkətlərinin yeni vakansiyalar açmalı olduğunu bildirmişdir. Dövlət şirkətlərinə və sözügedən nazirliyə Bakıda və bütün bölgələrdə əhalinin işlə təminatında birlikdə nümunə göstərməyi tövsiyə etmişdir. Əmin olduğunu bildirmişdir ki, onlara iş üçün müraciət edən insanların məşğulluğunu təmin etmək üçün imkanlar olacaq.

***Ardı 3-cü səh.***

# Əhalinin məşğulluğunun təmin edilməsinə yönəldilən tədbirlər davamlı xarakter daşıyır

*Əvvəli 1-ci səh.*

Yeni iş yerlərinin yaradılmasında sahibkarların da ehtiyat mənbələri çoxdur. Prezident İlham Əliyev onların bu işə töhfə verəcəklərini bildirmişdir: “Əgər iş adamları bu məsələyə sosial məsuliyyət nöqteyi-nəzərdən yanaşsalar və işsiz qalan insanları işə götürsələr, yaxud da ki, ixtisar etmək istədikləri insanları ixtisar etməsələr, onlar ümumi işimizə töhfə verərlər. Çünki bu, sosial məsuliyyətdir. Bu bizim ümumi işimizdir”.

Dövlət sahibkarlığın inkişafına böyük kömək göstərir. Onlara həm siyasi, həm metodoloji dəstək verilir, bütün layihələr üzrə biznes planları hazırlanır, maliyyə vəsaiti ayrılır. Son 12 il ərzində sahibkarlara güzəştli şərtlərlə 1 milyard 700 milyon manat kredit verilmişdir. Cari ildə veriləcək kreditləri də nəzərə alsaq, onlar artaraq daha böyük məbləğ təşkil edir. Bütün bunlar onunla nəticələnir ki, sahibkarlar həm istehsal sahələrini genişləndirir, həm də yeni iş yerləri yaradırlar.

Şəhərlərdə və rayon mərkəzlərində sosial mənzillərin tikintisinə başlanması da yeni iş yerlərinin açılmasına imkan verəcək. Bəzi yerlərdə inşaat işlərinin azalması nəticəsində işlərini itirmiş insanlar üçün yenidən əmək meydanı yaranacaq. Beləliklə, sosial mənzillərin tikintisinin həm də bu baxımdan səmərəsi böyük olacaq.

Doğrudur, dövlət işləməyən, yaxud aztəminatlı işdə çalışan, maddi imkanları zəif olan vətəndaşları unutmur. Bu məsələnin həllində ünvanlı sosial yardımların da müəyyən rolu var. Bu, çox mühüm sosial təşəbbüsdür və dövlət tərəfindən uğurla icra olunur. Lakin məsələnin başqa bir tərəfi də var. Bəzi hallarda bu, insanlarda ələbaxımlıq, tənbəllik yaradır. Bu hal baş verməsin deyə, dövlət düşünülmüş siyasət həyata keçirərək insanların özlərinin işləyib qazanc əldə etməsi üçün şərait yaradır. Bakıda, eləcə də ölkənin digər şəhər və rayonlarında çoxlu sayda ictimai iş yerləri açılıb. Prezidentin dövlət müəssisə və şirkətlərinə yeni-yeni iş yerlərinin açılmasını tapşırmasının bir məqsədi də insanların ələbaxımlıq kimi pis vərdişdən uzaqlaşdırılması, iş qabiliyyəti olanların hamısının faydalı əməyə cəlb edilməsidir. Bu barədə dövlət başçısı demişdir: “Ancaq bəzi hallarda biz görürük ki, vətəndaşlar o iş yerlərindən istifadə etmək istəmirlər, daha çox dövlətdən sosial yardım almaq istəyirlər. Ona görə burada çox dəqiq siyasət aparılmalıdır. Doğrudan da, kimin ehtiyacı varsa, ona dövlət daim diqqət göstərəcək. Ancaq əmək qabiliyyətli vətəndaşlar, gənc vətəndaşlar əgər iş varsa, getsinlər o işlərdə işləsinlər, maaş qazansınlar və beləliklə, gələcəkdə öz həyatlarını qursunlar”.

Dövlət başçısının göstərişləri, onlara uyğun olaraq görülən tədbirlər qısa zaman ərzində öz bəhrəsini vermişdir. Nazirlər Kabinetinin bu ilin birinci rübünün yekunlarına həsr olunmuş iclasında bildirilmişdir ki, üç ay ərzində 37 min yeni iş yeri açılmışdır. Onlardan 31 mini yeni iş yerləridir. Bu dövrdə müxtəlif səbəblərdən 13 min iş yeri bağlansa da, yaranmış balans müsbətdir və yeni iş yerlərinin açılması daha çox dövlət sektorunda baş verib. Bu, dövlətin insanların sosial müdafiəsinə hesablanmış tədbirlərinə əsasən reallaşıb. Prezident İlham Əliyevin dediyi kimi: “Birinci rübdə atılan addımlar bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının maraqları bizim üçün hər şeydən üstündür”.

***Flora SADIQLI,***
***“Azərbaycan”***